*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 mart 2015-ci il № 18 (1934) Qiyməti 25 qəpik


## 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və yüksək amallar naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz Azərbaycan qadınlarının müasir cəmiyyətimizdə tutduğunuz mövqe, bərabər hüquqlar və imkanlar üçün göstərdiyiniz səylər, həmçinin mötəbər qurumlarda təmsil olunmağınız fəxr etdiyimiz mühüm tarixi nailiyyətlərdir. Adınız ülviyyətin, zərifliyin və gözəlliyin rəmzi kimi ölkəmizdə həmişə uca tutulmuşdur. Qədim keçmişimizin hər bir səhifəsi müdrikliyinizin, fədakarlıq və qəhrəmanlığınızın parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik mədəni-mənəvi dəyərlərin, doğma ana dilinin və adət-ənənələrin bu günlərədək layiqincə yaşadılması sizin misilsiz xidmətinizdir.

Mədəniyyət salnaməmizə, ədəbi-ictimai və elmi fikir tariximizə öz istedadı və zəkasıyla yeni səhifələr yazmış maarifpərvər Azərbaycan xanımlarının yolunu siz bu gün də şərəflə davam etdirirsiniz. Nəsillərin varisliyini qoruyaraq ötən əsr boyunca sosial-mədəni fəaliyyətin genişləndirilməsi istiqamətindəki müvəffəqiyyətlərinizi müasir mərhələdə vətəndaş cəmiyyətinin təşəkkülü və əsaslarının möhkəmləndirilməsi prosesində yaxından iştirakınızla daha da zənginləşdirmisiniz. Məmnunluq hissi ilə bildirirəm ki, müstəqilliyimizin bərpasından sonrakı müddət ərzində milli dövlət quruculuğu sahəsində qazanılan uğurlarda müstəsna rolunuz vardır.

Azərbaycançılıq məfkurəsinə, milli dövlətçilik ideallarına sədaqət, Vətənə məhəbbət ruhunda formalaşmış gənclik ölkəmizə ən böyük töhfənizdir. İnanıram ki, istedad və bacarığınızı ictimai-siyasi, sosial-iqtisadi və intellektual-mənəvi həyatımızda bundan sonra da gerçəkləşdirərək, Azərbaycanın davamlı inkişafı naminə var qüvvənizlə çalışacaqsınız.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 mart 2015-ci il.

## 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Hörmətli xanımlar!

Sizi, 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edir və ən xoş arzularımı bildirirəm.

Tarix boyu Azərbaycan qadınları öz Vətəninə, xalqına, dövlətinə sadiq olaraq öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, Vətən üçün ləyaqətli övladlar tərbiyə etmiş, yeri gələndə qılınca qurşanaraq öz həyat yoldaşları ilə birlikdə çiyin-çiyinə müqəddəs torpaqlarımızın müdafiəsinə qalxmış və bu gün də bu missiyanı şərəflə davam etdirirlər.

Ölkənin ictimai-siyasi, mədəni, elmi, pedaqoji həyatında, müxtəlif sahələrdə olduğu kimi, hərbi peşəni seçən və taleyini Vətənə xidmət peşəsinə həsr edən qadınlarımız da kifayət qədərdir. Ölkə rəhbərliyi onların xidmətlərini həmişə yüksək qiymətləndirir.

Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri hörmətli Mehriban xanımın timsalında bu gün bütün dünya Azərbaycan qadınlarının nəyə qadir olduğunu görür və qiymətləndirir.

Bu bayram günündə şəhidlik zirvəsinə ucalmış Azərbaycanın Milli Qəhrəmanları Gültəkin və Salatın Əsgərovaların, "Azərbaycan Bayrağı" ordenli Məleykə Əhmədova, Qaratel Mahmudova, Rahilə Orucova və digər neçə-neçə mübariz qadınlarımızın xatirəsini hörmət və ehtiramla yad edir, onların doğmalarına, ümumiyyətlə, bütün şəhid analarına, şəhid hərbi qulluqçuların vəfalı ömür-gün yoldaşlarına bayram təbrikimi çatdıraraq, onlara səbr, təmkin və dözüm arzulayıram.

Müstəqil respublikamızın ərazi bütövlüyü, suverenliyi və təhlükəsizliyinin keşiyində ayıq-sayıq dayanaraq Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olan Azərbaycan əsgərlərinin analarının xidmətlərini bu gün xüsusi olaraq qeyd edirəm.

Veteran qadınlarımıza, eləcə də hazırda Silahlı Qüvvələrimizdə xidmət edən qadın hərbi qulluqçulara, dövlət qulluqçularına və mülki işçilərə möhkəm cansağlığı, xoşbəxt, firavan həyat, ailə səadəti və Vətən naminə çətin və şərəfli xidmətlərində daha böyük uğurlar qazanmağı arzulayıram.

Əmin olduğumu bildirirəm ki, siz bundan sonra da ulu öndərimizin ideyalarına sadiq qalaraq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qadınlarımıza göstərdiyi etimadı, diqqət və qayğını nəcib əməlləriniz və vicdanlı xidmətlərinizlə doğruldacaqsınız.

Bayramınız mübarək olsun, əziz xanımlar!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Bolqarıstan Respublikasına rəsmi səfərə gedib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.

* * *

Bolqarıstan Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 4-də Sofiyanın Aleksandr Nevski meydanında rəsmi qarşılanma mərasimi olub.

Bolqarıstanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti Prezident Rosen Plevneliyevə təqdim olundu.

* * *

Martın 4-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sofiyanın Aleksandr Nevski meydanında naməlum əsgərin məzarını ziyarət edib.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu.

* * *

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev ilə təkbətək görüşü olub.

Dövlət başçıları əvvəlcə rəsmi foto çəkdirdilər.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, humanitar, mədəni və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı. Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfərinin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi işinə böyük töhfə verəcəyi qeyd olundu. Əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivin və yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev ilə geniş tərkibdə görüşü olub.

Bolqarıstan Prezidenti Rosen Plevneliyev:

- Cənab Prezident.

Azərbaycan hökumətinin üzvləri.

Sizi Bolqarıstanın milli bayramından bir gün sonra, dostluq rəmzlərimizi paylaşdığımız bir vaxtda qarşılamaq mənim üçün böyük şərəfdir. Ölkələrimiz arasında əsrlər boyu mövcud olan dostluğun davamı kimi bu gün biz Azərbaycan Respublikası və Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalayacağıq. Bolqar xalqı Sizin səfərinizdən məmnunluq duyur, çünki Azərbaycan bizim üçün çox yaxşı, etibarlı dost və tərəfdaşdır. Strateji tərəfdaşlıq çərçivəsində bütün sahələrdə əməkdaşlıq üçün yeni üfüqlər açılır. Mən bu uğurdan çox qürur duyuram və bundan sonra bu nailiyyətin təfərrüatları üzərində çalışacaq hər kəsə uğurlar arzulamaq istəyirəm. Bir daha Bolqarıstana xoş gəlmisiniz.

Azərbaycan Prezidenti İlham Əliyev:

- Cənab Prezident, təşəkkür edirəm.

Sizin gözəl ölkənizə yenidən səfər etməyimə çox şadam. Fürsətdən istifadə edərək Sizi və bütün bolqar xalqını dünən qeyd etdiyiniz milli bayramınız münasibətilə təbrik etmək istərdim. Mənə hədiyyə etdiyiniz bu gözəl yaz rəmzinə görə təşəkkür edirəm. Mən bunu həm də dostluq rəmzi hesab edirəm. Sizin dediyiniz kimi, Bolqarıstanda bu rəmzləri ailə üzvlərinə və dostlara hədiyyə edirlər. Biz yaxşı dostlarıq və strateji tərəfdaşlığımızı gücləndirəcəyik.

* * *

Görüşdə Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu qeyd edildi. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı, investisiya qoyuluşu, energetika, TAP və TANAP strateji layihələri, informasiya-kommunikasiya texnologiyaları, əczaçılıq, ərzaq məhsulları, turizm, infrastruktur və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Martın 4-də Sofiyada geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rosen Plevneliyev "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"ni imzaladılar.

* * *

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov ilə təkbətək görüşü olub.

Prezident İlham Əliyev və Baş nazir Boyko Borisov əvvəlcə rəsmi foto çəkdirdilər.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Əlaqələrimizin strateji əməkdaşlıq səviyyəsinə yüksəlməsinin önəmi vurğulandı. İqtisadi əlaqələrimizin genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edildi.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair ətraflı fikir mübadiləsi aparıldı.

* * *

Martın 4-də Sofiyada Prezident İlham Əliyevin və Baş nazir Boyko Borisovun geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Bolqarıstan sənədləri imzalanıb.

"Azərbaycan Respublikası Hökuməti və Bolqarıstan Respublikası Hökuməti arasında elektron rabitə, informasiya texnologiyaları və elektron idarəçilik sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov, Bolqarıstanın nəqliyyat, informasiya texnologiyaları və rabitə naziri İvaylo Moskovski imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Bolqarıstan Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Protokol"u Azərbaycanın Bolqarıstandakı səfiri Emil Kərimov və Bolqarıstanın turizm nazirinin müavini xanım İrena Georgiyeva imzaladılar.

* * *

Martın 4-də Sofiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisovun mətbuat konfransı olub.

Baş nazir Boyko Borisov Prezident İlham Əliyevi bir daha salamladı və sözü dövlətimizin başçısına verdi.

Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev Bolqarıstana budəfəki səfəri zamanı bu əlaqələrin müxtəlif aspektlərinin müzakirə olunduğunu söylədi. Prezident İlham Əliyev qeyd etdi ki, Bolqarıstan ilə Azərbaycan arasında siyasi əlaqələr güclüdür və bu əlaqələrin gözəl perspektivləri var. "Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı mövcuddur. Bolqar şirkətlərinin Azərbaycana investisiya qoymaq perspektivləri də böyükdür".

Dövlətimizin başçısı Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə toxunaraq bu layihənin Avropanı Asiya ilə birləşdirməkdə mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı. Bolqarıstanda keçirdiyi görüşlər zamanı müzakirə olunan məsələlər içərisində enerji layihələrinin əsas mövzu olduğunu vurğulayan Prezident İlham Əliyev bu baxımdan "Cənub" qaz dəhlizinin önəmindən danışdı. Bildirdi ki, TANAP və TAP layihələrinin tikintisi "Cənub" qaz dəhlizi layihəsini formalaşdırır və bundan sonra da Azərbaycan Avropanın enerji təhlükəsizliyindəki rolunu davam etdirəcək. Bolqarıstanın da "Cənub" qaz dəhlizi layihəsinin iştirakçısı olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev gələcəkdə tranzit ölkə kimi Bolqarıstanın həmin layihədə mühüm rol oynayacağını vurğuladı.

Bolqarıstanı Azərbaycanın yaxın dostu kimi dəyərləndirən Prezident İlham Əliyev bir daha milli bayram münasibətilə təbriklərini çatdırdı.

Baş nazir Boyko Borisov qarşılıqlı səfərlərin əhəmiyyətinə toxundu və dedi ki, belə səfərlər nəzərdə tutulan layihələrin uğurlu icrasına güclü təkan verir. Baş nazir qeyd etdi ki, Bolqarıstanda siyasi hakimiyyəti kimin təmsil etməsindən asılı olmayaraq, hər zaman Azərbaycan və "Cənub" qaz dəhlizi dəstəklənəcək. "Çünki bu layihə Bolqarıstanın qaz-nəqliyyat sisteminin inkişafına güclü təkan verəcək".

Bolqarıstanın Baş naziri də Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin önəmindən danışdı. O, ölkələrimiz arasında inşaat, əczaçılıq, səhiyyə, kənd təsərrüfatı, idman və digər sahələrdə əməkdaşlığın geniş perspektivləri olduğunu vurğuladı.

Sonra Prezident İlham Əliyev və Baş nazir Boyko Borisov jurnalistlərin suallarını cavablandırdılar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Bolqarıstan Respublikasına rəsmi səfəri çərçivəsində Müqəddəs Sofiya kilsəsində olub.

Bolqarıstan paytaxtının mərkəzi hissəsində yerləşən Müqəddəs Sofiya kilsəsi bu ölkənin diqqəti cəlb edən ən qədim məbədidir.

Kilsənin ayrı-ayrı guşələri və eksponatları ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, tarixi mənbələrdə burada ilk kilsənin 311-313-cü illərdə tikildiyi göstərilir. Sonralar məbəd imperator I Konstantin tərəfindən daha da genişləndirilib. Sonrakı əsrlərdə müxtəlif müharibələr zamanı kilsə dağıntılara məruz qalıb. 537-ci ildə imperator I Yustinian məbədi yenidən bərpa etdirib. Orta əsrlərdə bu tikili imperiyanın baş məbədi olub. Osmanlı imperiyası dövründə məbəd bir müddət məscid funksiyasını yerinə yetirib. Bolqarıstan paytaxtının adı da ilkin mənbəyini artıq 1700 ildir ki, dindarların əsas ibadət yeri kimi fəaliyyət göstərən bu məbəddən götürüb. XIII əsrdən başlayaraq yerli əhali bu şəhərə yunanca mənası "müdriklik" olan Sofiya adını verib. XIV əsrdən başlayaraq bolqar çarlarının bütün sənədlərində paytaxt şəhər Sofiya olduğu göstərilir. Bu kilsə dini məbəd olmaqla yanaşı, tarixi abidə kimi Bolqarıstanın diqqətçəkən turizm obyektlərindən sayılır.

Prezident İlham Əliyev məbədin xatirə kitabına ürək sözlərini yazdı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına rəsmi səfəri martın 5-də başa çatıb.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Sofiya şəhərinin hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bolqarıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.

**AzərTAc-ın materialları əsasında**



# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri Komandanını qəbul edib







***Martın 4-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri Komandanı, ordu generalı Akın Öztürkü qəbul edib.***

Ordu generalı A.Öztürkün rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarlarını, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş vətəndaşlarımızın məzarlarını, o cümlədən Türk Şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra ordu generalı A.Öztürkün Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Protokola uyğun olaraq Hərbi Hava Qüvvələri Komandanı Şərəf kitabına ürək sözlərini yazıb.

Nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq, Azərbaycanla Türkiyə arasında əməkdaşlığın dostluq-qardaşlıq münasibətləri üzərində qurulduğunu və bu əlaqələrin daim inkişaf etdiyini qeyd edib.

Müdafiə naziri iki ölkə arasında hərbi əməkdaşlıq planına əsasən, keçən il Azərbaycan səmasında, hazırda isə Türkiyədə keçirilən Hərbi Hava Qüvvələrinin birgə təlimlərinin təcrübə toplanılması baxımından mühüm olduğunu qeyd edərək, bu sahədə əlaqələrin daha da genişləndirilməsini xüsusi vurğulayıb.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistanın regional sabitliyə əsas təhlükə yaratdığını, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları əsasında həllinə nail olunmasının vacibliyini bildirib.

Ordu generalı A.Öztürk də öz növbəsində dövlətlərimizin əlaqələrinin qədim tarixi köklərə, mehriban dostluq münasibətlərinə əsaslandığını və Türkiyənin Azərbaycanın vacib tərəfdaşı olduğunu qeyd edib.

Sonra Azərbaycan-Türkiyə hərbi əlaqələri və qarşılıqlı maraq doğuran digər regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşqun da iştirak edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Müdafiə naziri ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirini qəbul edib

***Martın 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Robert Sekutanı qəbul edib.***



Səfiri yeni təyinatı ilə əlaqədar təbrik edən Müdafiə naziri Azərbaycan ilə ABŞ arasında ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətinə toxunaraq bu sahədə əldə edilmiş müsbət nəticələrə və həllini gözləyən məsələlərə dair qonaqla fikir mübadiləsi aparıb.

Müdafiə naziri ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif istiqamətləri, o cümlədən hərbi sahəni də əhatə etdiyini və bu əməkdaşlığın dərinləşdirilməsinin vacibliyini xüsusi vurğulayıb.

Hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Böyük sülh sazişi ilə bağlı çağırışın edilməsinə baxmayaraq, sülh prosesinin yubanmasını və danışıqların rəsmi Yerevan tərəfindən qəsdən uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Səfir regiondakı vəziyyətə müsbət təsir göstərə biləcək sülhün bərqərar olması üçün ABŞ-ın səylərinə və əlaqələrin genişlənməsi təşəbbüslərinə toxunaraq həmsədrlər tərəfindən irəli sürülən Böyük sülh sazişi ideyasının müsbət qarşılandığını bildirib.

Görüşdə regional və ikitərəfli əməkdaşlıqla bağlı digər məsələlər də müzakirə olunub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "TurAz Şahini 2015" təlimləri davam edir



Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum və İl-76 hərbi-nəqliyyat təyyarəsinin iştirakı ilə Konya şəhərində yerləşən aviabazada Türkiyə Hərbi Hava Qüvvələri ilə müştərək təlimlər davam edir.

Təlimlər aprelin 13-dək davam edəcəkdir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin 1980-ci il buraxılışının 35 illik yubiley tədbirləri keçiriləcək

Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin məzunlarının çoxsaylı təkliflərini və şəxsi heyətin tarixi ənənələrə sədaqət ruhunda tərbiyəsinin əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişi ilə cari ilin iyulun 19-da 1980-ci il məzunlarının buraxılışının 35 illik yubileyinə həsr edilmiş təntənəli görüş keçiriləcəkdir.

Tədbirə hazırlıqla əlaqədar İşçi Qrupun rəhbəri Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev təyin edilib.

Yubiley tədbirləri haqqında əlavə məlumat mütəmadi olaraq http:www.mod.gov.az- Müdafiə Nazirliyinin, http:www.aahm.edu.azHeydər Əliyev adına AAHM və http:bvoku.clan.su Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin məzunlarının saytlarında yerləşdiriləcəkdir.

## Əfqanıstan Milli Ordusunun yüksək vəzifəli nümayəndələri üçün seminar keçirilib

Bakıda Əfqanıstan Milli Ordusunun yüksək vəzifəli nümayəndələri üçün "Silahlı Qüvvələr üzərində mülki nəzarət" mövzusunda beşgünlük seminar təşkil olunub.

ADA Universitetində keçirilən tədbirdə Azərbaycanın dövlət qurumlarının və NATO-nun nümayəndələri müxtəlif mövzularda brifinqlər təqdim ediblər.

Müdafiə Nazirliyinin zabiti polkovnik-leytenant Namiq Həmidli "Silahlı Qüvvələr üzərində mülki nəzarət sahəsində Azərbaycan təcrübəsi" adlı mühazirə ilə çıxış edərək müzakirələrə qatılıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***6 mart 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 69 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Çinari və Ayqepar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Əlibəyli və Muncuqlu kəndlərində, Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Çaylı, Ağdam rayonunun Yusifcanlı, Sarıcalı, Cəvahirli, Kəngərli, Şuraabad, Qaraqaşlı, Mərzili, Şıxlar, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

## Ermənistan silahlı qüvvələrinin növbəti təxribat qrupu məhv edilib

Martın 6-a keçən gecə Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu Ağdərə-Tərtər istiqamətində qoşunların təmas xəttində mövqelərimizə basqın etməyə cəhd göstərib.

Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı, görülən qabaqlayıcı tədbirlər və atəş gücü vasitəsilə düşmənə endirilən ağır zərbədən sonra itki verən işğalçılar silah və sursatı ataraq geri qaçmağa məcbur ediliblər.

Döyüşdə bir hərbi qulluqçumuz çavuş Zahidov Dəyanət Mehman oğlu sağ əlindən yüngül yaralanıb.

## Ermənistan tərəfinin növbəti təxribatı

Ermənistan Müdafiə Nazirliyi cəbhədə uğursuz əməliyyat keçirmək cəhdindən sonra öz xalqının qəzəbindən qorxaraq vəziyyətlə bağlı növbəti dəfə dezinformasiya xarakterli məlumat yayıb.

Erməni tərəfi bu məlumatla xalqını aldadaraq cəbhədəki itkilərini, döyüş meydanında əsgər və zabitlərin qorxaqlıq göstərərək silah-sursatı atmaqla qaçdıqlarını, qeyri-peşəkarlıqlarını və o cümlədən ötən gecə həqiqətən cəbhənin Ağdərə-Tərtər istiqamətində uğursuz təxribat törətmək cəhdilərini etiraf edib.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, düşməndən fərqli olaraq qoşunların təmas xəttində heç bir xüsusi təyinatlı bölmələrimiz istifadə olunmur. Cəbhədəki vəziyyət və bir nəfər yaralı haqqında Mətbuat Xidməti tərəfindən səhər saatlarında verilən məlumatdan başqa Silahlı Qüvvələrimizin bölmələri nə canlı qüvvə, nə də silah və texnika sarıdan heç bir itki verməyib və əməliyyat şəraitinə tam nəzarət edir.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə növbəti dəfə müraciət edərək ermənilərin təxribat məqsədilə yaydığı xəbərlərdən istifadə etməməyi tövsiyə edirik.

# "Azərbaycan qadını yüksək hörmət və ehtirama layiqdir"

## Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsində Beynəlxalq Qadınlar Günü ilə bağlı tədbir keçirilib





***Müdafiə nazirinin tapşırığına əsasən, hərbi hissə və birləşmələrdə, hərbi tədris müəssisələrində, hərbi qurumlarda 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə tədbirlər keçirilib.***

Maddi-Texniki Təminat Baş İdarəsində də tabelikdə xidmət edən hərbi və mülki qadın qulluqçularla bayram münasibətilə görüş keçirilib. Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-mayor Qorxmaz Qarayev tədbirdə çıxış edərək 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə xanımları təbrik edib. Qadınlar bayramını bəşəriyyət tarixində ən əlamətdar günlərdən biri kimi dəyərləndirən ali rütbəli zabit bildirib ki, Azərbaycan qadınının rolu cəmiyyətdə getdikcə artır, o, ictimai-siyasi, mədəni həyatın fəal iştirakçısına çevrilir. Nazir müavininin sözlərinə görə, Azərbaycan qadını cəmiyyətdə ən yüksək hörmət və ehtirama layiqdir.

Müasir dövrdə müstəqil Azərbaycanın inkişafına qadınlarımızın dəyərli töhfələr verdiyini, beynəlxalq qadın hərəkatında fəal iştirak etdiyini dilə gətirən general Maddi-Texniki Təminat Baş İdarəsinin kollektivi adından xanımlara xoş arzularını bildirib, onlara qiymətli hədiyyə və gül dəstələri təqdim edib.

Qadınlar adından söz alan gizir Kəmalə Vəlixanova onlara göstərilən yüksək diqqət və qayğıya görə həm Müdafiə Nazirliyinin, həm də Maddi-Texniki Təminat Baş İdarəsinin rəhbərliklərinə minnətdarlığını çatdırıb.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

8 Mart Beynəlxalq Qadınlar Günüdür

# Bayramınız mübarək, əziz qadınlar!

***Bu gün qadınlar da forma geyinib bizimlə bir sırada xidmət edirlər. Xidmətin çətinliyi onların da zərif çiyinlərinə düşür. Azərbaycan qadınının hünərindən, qəhrəmanlığından indiyə qədər çox yazılıb. Heç uzağa getməyək, elə Qarabağ müharibəsində igidliyi ilə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş Gültəkin Əsgərova, Salatın Əsgərova və "Azərbaycan Bayrağı" ordenli Mələykə Əhmədova, Qaratel Hacımahmudova kimi cəsur qadınlarımız olub. 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində ordu sıralarında xidmət edən qadınların bir qrupu ilə görüşüb söhbət etdik, onların ürək sözlərini dinlədik.***



Baş çavuş
Ulduz QULİYEVA

Otağa daxil olanda hərbçi qadınları iş başında gördük. Stolların üstündəki kitablar, qovluqlar, sənədlər işlərin çoxluğundan xəbər verirdi. Amma bir anlıq da olsa, onları işlərindən ayırmalı oldum. İlk olaraq Şəxsi Heyət Baş İdarəsinin kargüzarlıq bölməsinin rəisi baş çavuş Ulduz Quliyeva ilə həmsöhbət oldum. Bakı şəhərində dünyaya göz açmış Ulduz xanım 1994-cü ilin avqust ayından "N" hərbi hissəsində ekspeditor kimi xidmətə başlayıb. Üç ildən sonra isə Kadrlar və Hərbi Təhsil İdarəsinin kargüzarlıq bölməsinin kargüzarı vəzifəsinə təyin olunub. Vətənə sevgi ilə qulluq edən baş çavuş kargüzarlıq peşəsinin sirlərini dərindən öyrənib. Bacarığını nəzərə alan komandanlıq 1998-ci ildə onu kargüzarlıq bölməsinə rəis vəzifəsinə irəli çəkib. O vaxtdan Ulduz xanım ciddi məsuliyyət tələb edən bir vəzifədə çalışır. Ötən il məharət dərəcəsi almaq üçün imtahan verən U.Quliyeva "usta" dərəcəsinə layiq görülüb.

- Tapşırıqlar məsuliyyətli olduğundan, bütün diqqətimizi xidmətimizə yönəltmişik, - deyə baş çavuş sözə başladı. - İşlərimizi günün tələbləri səviyyəsində qurmağa çalışırıq. Vaxtlı-vaxtında vətəndaşlardan, ayrı-ayrı idarə və təşkilatlardan daxil olmuş sənədlərin, ərizələrin qeydiyyatı aparılır və operativ şəkildə aidiyyəti üzrə yerlərə çatdırılır. Hərbçi kimi Vətənə xidmət etməkdən qürur duyuram. Daim güclənən, qüdrətini artıran ordumuzun sıralarında olmağımla fəxr edirəm.

Çavuş İntizar Hacıyeva da xeyli müddətdir ki, ordu sıralarındadır. Xidmətə 1999-cu ildə "N" hərbi hissəsində telefonçu kimi başlayıb. 2005-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kursunu" bitirib. Kurs zamanı hərbi bilik və vərdişləri mənimsəyib. 2010-cu ildən isə burada xidmət edir. Kargüzar kimi öz üzərinə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlir. Söhbət zamanı bildirdi ki, hərbi peşəyə marağı böyükdür. Gün ərzində verilən əmr və tapşırıqları vaxtında icra edir.



Çavuş
İntizar HACIYEVA

İntizar xanım söhbətinin sonunda əminliklə bildirdi ki, bundan sonra da xidmətinə məsuliyyətlə yanaşacaq, tapşırıqların öhdəsindən bacarıqla gələcək.



Çavuş
Zahidət ƏLİYEVA

Ölkəmizin gözəl guşələrindən olan Zaqatala rayonunda dünyaya göz açmış çavuş Zahidət Əliyeva isə orta məktəbi bitirəndən sonra ali təhsil almaq üçün Azərbaycan Beynəlxalq Universitetinə üz tutub. İlk addımı uğurlu olub. Ali təhsilini bitirəndən sonra isə ürəyində hərbçi olmaq istəyi baş qaldırıb. 2012-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində operator vəzifəsində xidmətə başlayıb. Ötən ilin fevral ayından isə burada çalışır. Çavuş Zahidət Əliyeva hərbi bilikləri və vərdişləri mənimsəmək üçün daim öz üzərində çalışır. Belə çalışqanlığın nəticəsidir ki, ötən müddət ərzində o xeyli təcrübə toplayıb.



Gülsüm ZAMANOVA

Təcrübəli çavuş bildirdi ki, ordumuzun sıralarında xidmət etməkdən qürur duyur. Hərbçi olduğu üçün özünü dünyanın xoşbəxti sanır. Xidmətin hər anı onun üçün qiymətlidir.

Gülsüm Zamanova da uzun müddətdir doğma ordumuzun sıralarındadır. Hərbçi kimi 1992-ci ildən xidmətə başlayıb. 2011-ci ildə isə təqaüdə çıxıb. Orduya olan sevgi Gülsümü yenidən Müdafiə Nazirliyində işləməyə ruhlandırıb.

- İşimə məsuliyyətlə, vicdanla yanaşıram, sənədləri hazırlamağa böyük diqqət göstərirəm. Çünki hər sənədin arxasında bir insan taleyi dayanır, - deyir hərbçi xanım. - Bütün bunlar isə bizi daha məsuliyyətli və diqqətli olmağa sövq edir.

Mülki işçilər bölməsinin baş inspektoru Xuraman Kərimova hərbçi kimi xidmətə ölkəmiz üçün ağır günlərdə - 1991-ci ildə başlayıb. Xuraman 2010-cu ilə qədər gizir rütbəsində Kadrlar və Hərbi Təhsil İdarəsində xidmət edib. Xidmətə başladığı həmin günlərdə qoynunda dünyaya göz açdığı Kəlbəcərdə müharibə gedirdi. Xuramanın qardaşları Rüfət, Zahid və Zöhrab Kəlbəcər uğrunda gedən döyüşlərdə vuruşurdu. O günlərdə rayon sakinlərinin diqqəti ön xəttə yönəlmişdi. Erməni işğalçıları Ağdaban istiqamətindən hücuma keçmişdilər. Xuraman həm qardaşlarından, həm də doğma ocaqlarından nigaran idi. Qardaşlarından biri - Rüfət elə həmin günlərdə vuruşduğu torpaq uğrunda şəhid olub. Zöhrab və Zahid isə yaralanıblar.

Orduya böyük sevgisi olan Xuraman xanım təqaüdə çıxandan sonra mülki qulluqçu kimi yenə də öz peşəsində işləyir. Öz vəzifə borcunun öhdəsindən bacarıqla gələn Xuramanın ən böyük arzusu qoynunda dünyaya göz açdığı Kəlbəcərə dönməkdir. Hamımız o anın intizarındayıq. İnanırıq ki, günlərin birində qapımızı qələbə xəbəri döyəcək.



Xuraman KƏRİMOVA

23 ildir ki, Məsumə Məmmədova evdən çıxanda bir ünvana - Müdafiə Nazirliyinə yollanır. Deməli, Məsumə xanım öz işini sevir, onun vurğunudur.

- Hərbçilərə xidmət etmək ürəyimcədir. Vətəni qoruyan bu oğullara diqqət və qayğı göstərmək başlıca vəzifəmdir, - deyə Məsumə Məmmədova sözə başladı. - Həmişə çalışıram ki, bölməyə üz tutan zabit və əsgərləri geyimlə, əşya-əmlakla təmin etmək üçün üzərimə düşən vəzifəni layiqincə icra edim. Yeni xidmətə gələnlər üçün kartoçkalar açır, onların hansı əşya-əmlakı alacağını dəqiqliyi ilə orada qeyd edirəm. Sənədlər hazır olandan sonra isə hərbçilər rahat şəkildə anbardan istədiklərini alırlar.



Məsumə MƏMMƏDOVA

Söhbət zamanı onu da öyrəndim ki, Məsumə Məmmədovanın qızı Nəzakət Məmmədova da əyninə hərbi forma geyinərək bu gün ordumuzun sıralarında xidmət edir.

İnanırıq ki, 8 Mart Beynəlxalq Qadınlar Günü Müdafiə Nazirliyində çalışan həm hərbçi, həm də mülki qadınların ovqatına müsbət təsir edəcək. Onlar xidməti vəzifələrini daha həvəslə, daha yüksək ovqatla yerinə yetirəcəklər. Ordumuzda xidmət edən bütün qadınlara üzümüzü tutub uca səslə deyirik:

- Bayramınız mübarək, əziz qadınlar!

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**
**fotolar müəllifindir**

Qabaqcıl təcrübə

# Hesablayıcılar fərqləndilər



***Zabit Elşən Vəliyevin açıqlamasına görə, artilleriya qüvvələrinə məxsus olan "N"hərbi hissəsində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını artırmaq məqsədilə müxtəlif tədbirlərin, həmçinin hərbi ixtisaslar üzrə müsabiqələrin keçirilməsinə önəm verilir. Zabit hesab edir ki, belə tədbirlər həm gənc artilleriyaçıların hərbi vərdişlərini möhkəmləndirir, həm də bölmələr arasında sağlam rəqabətin yaranmasına səbəb olur.***

Bu yaxınlarda hərbi hissədə hesablayıcılar arasında birinci, ikinci və üçüncü yerlər uğrunda keçirilən yarış gənc artilleriyaçıların dərin marağına səbəb olub. Yarışda bacarıqlı hesablayıcılar öz qüvvələrini sınayıblar, nəzəri və praktik vərdişlərini nümayiş etdiriblər. Kapitan Amil Verdixanovun komandiri olduğu batareyanın əsgərləri yarışda fərqləniblər. Kiçik çavuşlardan Tamerlan Məhərrəmov 1-ci, Məhəmməd Yusifov 2-ci və Nihad Nəsirli 3-cü yerləri tutublar. Qaliblərə fəxri fərmanlar təqdim olunub.

Hərbi hissədən verilən məlumata görə, bundan sonra da başqa vacib ixtisaslar üzrə belə müsabiqələrin təşkil edilməsi üçün lazımi tədbirlər görülür.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Təlim və Tədris Mərkəzində peyntbol-tir yarışı keçirilib

***Azərbaycan Respublikası Müdafiə nazirinin "Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinə yönəldilmiş tədbirlər planı" çərçivəsində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Hərbi Akademiyanın və Azərbaycan Peyntbol Federasiyasının (APF) təşkilatçılığı ilə "5 Mart Bədən Tərbiyəsi və İdman Günü"nün 10 illiyinə həsr edilmiş peyntbol-tir yarışı keçirilib.***

Ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edildikdən sonra yarış açıq elan olunub. Hərbi orkestrin ifasında Azərbaycanın Dövlət himni səslənib.

Açılış mərasimində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəisi polkovnik Nazim Əlibəyov, APF-nin prezidenti, Milli Məclisin deputatı Əli Hüseynli, Gənclər və İdman Nazirliyinin, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) nümayəndələri çıxış ediblər.



Yarışda DİA-da təhsil alan Prezident təqaüdçüləri iştirak edib.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Orduda xidmət etdiyimə görə qürur duyuram"

Hərbçi dedikdə insanın gözü önünə əlində silah, əynində hərbi forma olan kişilər, barıt qoxulu səngərlər, döyüşlər gəlir. Hərb sənəti ağır və zəhmətlidir. Bu zəhmətə qatlananlar isə Vətən, torpaq eşqi ilə yaşayanlardı. Tarix boyu Azərbaycan mənfur qonşularından başı bəlalar çəkib, şəhidlər verib. Hər bir şəhid bizim qardaşımız, bacımız, doğmamızdır. Və işğaldakı torpaqlarımızı azad etmək tək hərbçilərin yox, əli silah tutan hər bir Azərbaycan övladının borcudur.

- Şəhidlər veririk, lakin qürurluyuq. Çünki heç bir şəhidimizin qanı yerdə qalmır, düşmən qorxu, vahimə içindədir, - deyə gizir Nahid Tağıyev söhbətimizdə qeyd etdi.

Nahid Tağıyevlə Füzuli rayonunda yerləşən "N" hərbi hissəsində söhbət etdik. Dayısı Hafiz İsmayılov gizir kimi döyüşlərdə iştirak edib, Vətən, millət uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalıb. Döyüşçü dayısının yolunu davam etdirən gizir N.Tağıyev əvvəllər Gədəbəydə yerləşən "N" hərbi hissəsində xidmət edib. Ötən illəri xatırlayıb, düşmənlə üz-üzə dayanmağından, səngər dostlarından danışmağı xoşlayır.



Vətənpərvər gizir son vaxtlar Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduda apardığı uğurlu islahatların bütün sahələrdə effektli nəticə verdiyini qeyd etdi.

Qadın və ordu nə qədər qəribə səslənsə də, artıq dünya təcrübəsində qadın hərbi qulluqçular artmaqdadır. Aparılan uğurlu islahatlardan biri də qadınların orduya cəlb olunmasıdır.

- Əlbəttə, bu islahat bəzi vacib sahələrin komplektləşdirilməsinə yardım edir, - deyə gizir bildirir. - Hazırda cavabdeh olduğum sahə məsuliyyət tələb edir. Kargüzarlığa təyin olunan operatorların əsgərlərdən seçildiyi vaxtlarda işimiz çox çətin idi. Yeni gələn əsgərə lazımi vərdişləri aşılamaq aylar çəkirdi, bir neçə ay sonra isə əsgər xidmətini başa vurub tərxis olunurdu. İndi isə operatorlar qadınlardan təyin olunur. Tapşırıqların öhdəsindən gələn vətənpərvər qadın hərbi qulluqçular yetərincə intizamlıdırlar.

Kargüzarlıqda xidmət edən operatorlar Zinyət Məmmədova, Rəqsanə Cəfərzadə, Sahilə Mikayılova müddətdən artıq xidmət edən hərbi qulluqçulardır və hərbi hissədə onların xidmətlərindən razılıq edirlər. "Orduda xidmət etdiyimə görə qürur duyuram. Biz öz işimizlə sübut etməyə çalışırıq ki, Azərbaycan oğulları kimi, biz də öz zəhmətimizlə Vətənin keşiyində dura bilirik", - deyə kiçik çavuş Rəqsanə Cəfərzadə bildirir.

Yeri gəlmişkən, orduda xidmətdə olan bütün qadın hərbi qulluqçularımızı 8 Mart bayramı münasibəti ilə təbrik edirik.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Silahlı Qüvvələrin bütün sursat ehtiyaclarını yerli istehsal tam ödəyəcək



Azərbaycan Müdafiə Sənayesi Nazirliyi bu ildən Silahlı Qüvvələrin bütün sursat ehtiyaclarını yerli istehsal hesabına tam qarşılayacaq. Bunu APA-ya açıqlamasında müdafiə sənayesi naziri Yavər Camalov bildirib.

Nazirin sözlərinə görə, yaxın aylarda Azərbaycanda tank və artilleriya mərmilərinin istehsalını həyata keçirəcək zavodun açılışı planlaşdırılır. Eyni zamanda bu il ərzində 30 millimetr çaplı mərmilərin, RPQ-7 qumbaraatanları üçün 4 növ döyüş sursatının istehsalına start veriləcək.

"Bununla da atıcı silahlar və artilleriya silahları üçün döyüş sursatlarına olan tələb tam qarşılanacaq", - deyə Y.Camalov vurğulayıb. Müdafiə sənayesi naziri artıq Azərbaycanın istehsal etdiyi döyüş sursatlarına xarici ölkələrdən tələbatın olduğunu da bildirib.

## İrlandiya Rusiyanı bu ölkənin hava məkanını pozmaqda ittiham edib



Rusiya Hava Hücumundan Müdafiə Qüvvələrinin bombardmançı təyyarələri radarlar tərəfindən müəyyən edən cihazları söndürməklə Böyük Britaniyanın hava məkanında uçublar.

Frans Press agentliyi xəbər verir ki, Rusiya bombardmançılarının bu hərəkətinə görə İrlandiya Aviasiya İdarəsi (Irish Aviation Authority) ölkə ərazindəki aviareyslərin birinin uçuş marşrutunu dəyişməyə məcbur olub.

Məlumatda, həmçinin deyilir ki, son aylarda NATO-nun hava qüvvələri Rusiya hərbi təyyarələrinin Baltik dənizi üzərində 10 dəfədən çox uçuşunu müəyyən edib.

NATO-nun baş katibi Yens Stoltenberq bəyan edib ki, Rusiya hərbi təyyarələri əvvəlki dövrlərlə müqayisədə özlərini daha aqressiv aparır.

## Apple satdığı smartfonların sayına görə Samsug şirkətini geridə qoydu



2014-cü ilin dördüncü rübündə iPhone bazarda ən populyar smartfon olub. Bu, Apple şirkətinə satılan smartfonların sayına görə Samsung şirkətini qabaqlamağa imkan verib.

Rusiyanın NTV telekanalı xəbər verir ki, Amerikanın Apple şirkəti keçən ilin son üç ayında 75 milyon smartfon satıb. Eyni dövr ərzində Koreya nəhənginin satdığı smartfonların sayı isə 73 milyon olub. Halbuki, bir il bundan əvvəl Samsung 83 milyon, Amerika şirkəti isə 50 milyon smartfon sata bilmişdi.

Smartfon bazarında üçüncü yeri rüb ərzində 24 milyondan çox satışa imza atan Lenovo tutur. Onun ardınca isə 21 milyon qurğu satmağa müvəffəq olan Huawei gəlir. İlk beşliyi 18 milyon smartfon satan Xiaomi tamamlayır. Ümumilikdə isə keçən ilin 4-cü rübündə 368 milyon smartfon satılıb.

## Hindistanda mal əti yemək ilk dəfə olaraq qanunla qadağan edilib



Hindistan Prezidenti Pranab Mukerci ölkənin maliyyə paytaxtı sayılan Mumbay şəhərinin yerləşdiyi Maxaraştra ştatında mal ətinin yeyilməsinə qoyulan qadağanı təsdiqləyib.

"Financial Times" qəzeti xəbər verir ki, bu qanunu pozanlar beş ilə qədər həbs cəzası ilə üzləşə bilərlər. Maxaraştra ştatının parlamenti mal əti yeyilməsinə qadağa qoyan qanunu hələ 20 il bundan əvvəl qəbul etmişdi. Lakin qanunun qüvvəyə minməsi üçün onun ölkə prezidenti tərəfindən də təsdiqlənməsi lazım idi.

Hindistan əhalisinin əsas hissəsi inəkləri müqəddəs heyvan sayan induizmin tərəfdarıdır. Lakin mal ətini yeməyə qoyulan qadağa qanun deyil, dini ehkamdır. Bu səbəbdən də Hindistanın bəzi ştatları iri buynuzlu heyvanı kəsməyi qadağan edərək mal əti satışını kəskin azaldıblar.

## Avstraliya İraqa 300 hərbi qulluqçu göndərəcək



Avstraliya ABŞ-ın İŞİD ilə mübarizədə beynəlxalq koalisiyanın səylərini birləşdirmək barədə xahişinə cavab olaraq 300 hərbi qulluqçusunu İraq ordusuna təlim keçmək üçün bu ölkəyə göndərəcək.

Reuters agentliyi bildirir ki, belə bir bəyanatla Avstraliyanın Baş naziri Toni Ebbot çıxış edib. Baş nazir agentliyə müsahibəsində deyib ki, hələ ötən il Avstraliya İraqa 600 nəfərlik hərbi kontingent, o cümlədən hərbi aviasiya üzrə 400 mütəxəssis, xüsusi təyinatlı ordu birləşmələrinə aid 200 hərbi qulluqçu göndərib.

Artıq İraq və Suriya ərazilərinin böyük bir hissəsini ələ keçirmiş İŞİD hazırda dünyanın ən böyük probleminə çevrilib. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin məlumatına görə, öz sıralarında 30 min yaraqlını birləşdirən İŞİD işğal etdiyi ərazilərdə xəlifəlik yaradır və daha geniş əraziləri tutmağa cəhd edir.

## Nadejda Savçenkoya "Ukrayna Qəhrəmanı" adı verilib



Ukrayna Prezidenti Pyotr Poroşenko Rusiyada həbsdə saxlanılan Ukrayna Hərbi Hava Qüvvələrinin baş leytenantı, helikopter pilotu Nadejda Savçenkoya "Ukrayna Qəhrəmanı" adının verilməsi haqqında fərman imzalayıb.

P.Poroşenko bildirib ki, N.Savçenko Ukrayna ruhunun sınmazlığının, Vətəni necə sevməyin və müdafiə etməyin, eləcə də qələbənin simvoludur. "Biz sizi əsirlikdən xilas etmək üçün hər şeyi edəcəyik. Mən çox ümid edirəm ki, sizə "Ukrayna Qəhrəmanı"nın qızıl ulduzunu təqdim edə biləcəyəm", - deyə o, müraciətində vurğulayıb.

Qeyd edək ki, N.Savçenko Donbasda gedən döyüşlər zamanı separatçılar tərəfindən əsir götürülüb və Rusiyaya aparılıb. N.Savçenko hazırda aclıq aksiyası keçirir və onun səhhəti pisləşib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

*İslahatlar bəhrə verir*

# "Milli xörəklərə üstünlük veririk"

General-polkovnik Zakir HƏSƏNOV:

*"Bir sıra xidmət, qulluqetmə vəzifələrinin icrasına mülki şəxslərin cəlb olunması həyata keçirilmişdir və gələcəkdə də bu məsələlərin mərhələlərlə həlli planlaşdırılır. Qısa müddətdə xeyli sayda mülki şəxs Silahlı Qüvvələrə qulluğa qəbul olunmuşdur".*



***Orduda aparılan islahatların müsbət nəticələri, əldə olunan nailiyyətlər bu gün göz önündədir. Bütün bunlar cəmiyyətdə ordumuzun nüfuzunun daha da artmasına bariz nümunədir.***

Ötən il Silahlı Qüvvələr Günü ərəfəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azər TAc-a müsahibəsində qeyd etmişdi ki, ordu ona aid olmayan əlavə funksiyalardan - müxtəlif təsərrüfat, mühafizə və qulluqetmə tapşırıqlarından mərhələlərlə azad edilir. "Bir sıra xidmət, qulluqetmə vəzifələrinin icrasına mülki şəxslərin cəlb olunması həyata keçirilmişdir və gələcəkdə də bu məsələlərin mərhələlərlə həlli planlaşdırılır. Qısa müddətdə xeyli sayda mülki şəxs Silahlı Qüvvələrə qulluğa qəbul olunmuşdur". Bəli, ordu rəhbərliyinin bu tövsiyələri birmənalı şəkildə hərbi hissələrdə yerinə yetirilir və döyüş hazırlığına ciddi diqqət göstərilir.

Ezamiyyətdə olduğum "N" hərbi hissəsində də bir çox məişət-təsərrüfat işlərinə mülki şəxslər cəlb edilib. Biz əsgər yeməkxanasına daxil olanda artıq səhər yeməyi başa çatmaq üzrə idi.

- Ordu rəhbərliyinin tövsiyələrinə əsasən, hərbi hissəmizdə şəxsi heyətə keyfiyyətli yeməklərin hazırlanması üçün peşəkar mülki aşpazlar işə qəbul edilib, - deyə zabit Fərid Tahirov bildirir. - Əvvəlki illərdən fərqli olaraq bu gün əsgərlərimiz təsərrüfat işlərindən azad olunaraq, təlim meydanlarında sırf döyüş hazırlığı ilə məşğuldur.



Geyimlərində səliqə-sahman olan ağ xalatlı aşpaz qadınlar əsgər yeməkxanasında şəxsi heyət üçün dadlı yeməklər bişirirlər. Artıq milli xörəklər hazırlanaraq əsgərlərə verilir. Peşəkar aşpazlardan Səidə Cabbarova, Kəmalə Feyzullayeva və yeməkxana xidmətçiləri Azadə Ağayeva, Asudə Kazımova öz üzərlərinə düşən vəzifələri məsuliyyət hissi ilə yerinə yetirirlər.

Təcrübəli aşpazlar tərəfindən hazırlanan dadlı-ləzzətli ev xörəkləri əsgərlərin ürəyincə olur. Əsgərin xidmət dövründə keyfiyyətli qida ilə təminatı bu gün orduda önəm kəsb edən amillərdəndir.

Əsgərlərimizə çeşidli milli yeməklər bişirən təcrübəli aşpaz Səidə Cabbarova söhbətində bildirdi ki, xörəklərin dadlı çıxmasında keyfiyyətli ərzaqlar əsas rol oynayır. Təzə qida məhsullarından hazırlanan xörəklər əsgərlərin ürəyincədir. Buna görə də şəxsi heyətin qidalanması üçün nəzərdə tutulan təzə və keyfiyyətli qida məhsulları ilə müntəzəm təmin olunuruq.

Daha çox milli yeməklərə üstünlük verən aşpaz Kəmalə Feyzullayeva isə Vətənin gənc müdafiəçilərinə qulluq göstərməkdən qürur duyduğunu, hətta bunu özünə mənəvi borc bildiyini söylədi.

Aşpaz xanımlar bizimlə söhbətlərindən sonra şəxsi heyətə nahar hazırlamaq üçün mətbəxə keçirlər. Artıq onlar hansı milli xörəyi bişirəcəklərini də əvvəlcədən müəyyənləşdiriblər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# "Övladlarınızı mənasız xəyallar uğrunda ölümə yollamayın"

Ermənistanın müdafiə naziri Seyran Ohanyanın bəyanatı vicdanını və şərəfini günahsız dinc insanların qanı ilə ləkələmiş cəlladın növbəti uydurmasıdır.

Xocalıda və Azərbaycanın işğal olunmuş digər ərazilərində mülki əhaliyə, o cümlədən körpələrə, qadınlara və ahıllara divan tutan bir şəxsin öz torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşən Azərbaycan xalqını təhqir edərək insaniyyətdən danışmağa mənəvi haqqı və hüququ yoxdur. Yüzlərlə uşağı qanına qəltan edən bu cani öz övladlarının və Azərbaycanın işğal olunmuş ərazilərində nahaq yerə məhv edilən, yaralanaraq şikəst olan ermənilərin uşaqlarının və yaxınlarının gözünə baxa bilirsə, bu onun psixi cəhətdən anormal olduğunu göstərir.

Bu gün və illərdir ki, S.Ohanyanın və cinayətkar erməni rəhbərliyinin ağlasığmaz təkəbbürünün əvəzini erməni xalqı hər gün qapılarına gətirilən tabutlarla ödəyir.

Biz erməni valideynlərə müraciət edərək övladlarını mənasız xəyallar uğrunda ölümə yollamamağa çağırırıq. Çünki son erməni işğalçısı Azərbaycan torpaqlarını tərk edən günədək siz bundan da ağır və sarsıdıcı itkilərlə qarşılaşacaqsınız.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Əsgərin tribunası*

# Döyüş meydanlarından qələbə ilə dönəcəyik




Hələ kiçik yaşlarımdan hərbi xidmətdən, müharibədən bəhs edən filmlərə maraqla baxırdım. Vətənə əsgər olacağım günü gözləyirdim. Ətrafımda əsgər görəndə onun yerişinə, duruşuna həsədlə baxırdım.

Abşeron rayonunda dünyaya göz açmışam. Xırdalan şəhərindəki 3 nömrəli məktəbdə oxumuşam. İnşaatçı olmağa həvəsim var idi. Orta təhsilimi başa vurandan sonra bu həvəs məni Azərbaycan Memarlıq və İnşaat Universitetinə gətirib çıxartdı. Yüksək balla bu ali məktəbin tikinti-iqtisadiyyat fakültəsinə daxil oldum. Tələbəlik həyatı yaşadım, tikinti işlərinin sirlərinə yiyələndim. Buraxılış imtahanlarından da uğurla keçdim. Sonra isə ordu sıralarına çağırıldım.

Cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək həm şərəfli, həm də məsuliyyətlidir. Bu məsuliyyəti dərindən dərk edərək ilk günlərdən məşğələlərdə fəallıq göstərdim, hərbi bilikləri öyrəndim. Məşğələlərin bütün mövzularını həvəslə konspektləşdirirdim. Çox keçmədi ki, tank əleyhinə raket kompleksinin taktiki-texniki xüsusiyyətlərini mənimsədim.

Vətənə əsgər olmaq hər birimizin borcudur. Gərəkdir ki, hamı bu müqəddəs borcu ləyaqətlə yerinə yetirsin. Bu gün biz əsgərlərin üzərinə böyük vəzifələr düşür. Ən başlıca vəzifəmiz erməni işğalçılarının işğalı altında qalmış torpaqlarımızı azad etməkdir. Erməni qəsbkarlarına qarşı nifrətimiz sonsuzdur. Hər an döyüşlərə atılmağa və torpaqlarımızı işğaldan azad etməyə hazırıq. İnanıram ki, döyüş meydanlarından qələbə ilə dönəcəyik.

Xidmətə gələndən sonra öyrəndim ki, bu hərbi hissənin zabit və əsgərləri Qarabağ müharibəsində böyük hünər və qəhrəmanlıqlar göstəriblər. Biz əsgərlər də sələflərimizin döyüş ənənələrini şərəflə davam etdirməliyik.

**Alim AZADƏLİYEV,**
**"N" hərbi hissəsinin əsgəri**

*Xeyirxah təşəbbüs*

# Silahlı Qüvvələrin Baş Klinik Hospitalında qanbağışlama aksiyası keçirilib

***Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin xeyirxah əməllərinin dəfələrlə şahidi olmuşuq. Komitənin sorağını tez-tez cəbhə bölgələrində gecə-gündüz döyüş növbəsi aparan hərbi hissələrimizdən almışıq. Birləşmiş Həmkarlar İttifaqı Komitəsi bu günlərdə daha bir xeyirxah təşəbbüslə çıxış edərək, Silahlı Qüvvələrin Baş Klinik Hospitalında qanbağışlama aksiyası keçirib.***



Belə bir deyim var ki, ən yaxşı örnək şəxsi nümunədir. Qanbağışlama olduqca xeyirxah bir hərəkətdir, kiminsə itirilmiş sağlamlığının bərpasında iştirak etmək, onun həyata qaytarılmasına yardımçı olmaqdan humanist nə ola bilər?! Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin qanbağışlama aksiyası bu baxımdan Silahlı Qüvvələrimiz üçün ən yaxşı nümunədir.



- Bildiyiniz kimi, biz tez-tez cəbhə bölgəsinə gedib döyüşçülərimizlə görüşürük, onlara xoş ovqat aşılayırıq, - Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin sədri Abiyət xanım Ağadadaşova bizimlə söhbətində dedi. - Həmkarlar Komitəsi olaraq həmçinin, hərbi hospitallarımıza baş çəkirik, orada müalicə alan hərbi qulluqçularla ünsiyyətdə oluruq. Bilirsiniz, son zamanlar erməni ünsürləri tez-tez atəşkəsi pozurlar. Döyüşçülərimizin yaralanması, itkilərimiz bizi narahat etməyə bilməz. Ona görə səfərlərimizin birində belə qərara gəldik ki, xeyirxah bir iş olan qanbağışlama aksiyası keçirək.

Əslində biz bu aksiyanı çoxdan keçirmək istəyirdik. Təşkilatçılıq baxımından bu gün mümkün oldu. Əsas odur ki, bu məqsədimizi gerçəkləşdirdik.

Öncə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsi Silahlı Qüvvələrimizdə çalışan mülki işçilər arasında belə bir təşəbbüs irəli sürdüyünü bəyan edib. Komitənin 70-dən artıq yerli təşkilatı var və onlar bu təşəbbüs barədə məlumatlandırılıblar. Müdafiə Nazirliyinin həmkarlar təşkilatlarında çalışan mülki işçilər təşəbbüsü maraqla qarşılayıblar və qanbağışlama aksiyasına həvəslə qatılıblar.

Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin 7 nəfərdən ibarət aparat kollektivini, başda Abiyət xanım Ağadadaşova olmaqla, Silahlı Qüvvələrin Baş Klinik Hospitalında keçirilən xeyirxah aksiyada fəal iştirak edən gördük.

- Sağ olsunlar, onlarla sadə vətəndaş könüllü olaraq bizim bu təşəbbüsümüzə qoşuldu və böyük istəklə gəlib döyüşçülərimizə qanbağışlama aksiyasında iştirak etdi, - Abiyət xanım bildirir. - Hətta hərbi qulluqçular da eşidiblər ki, belə bir aksiya keçiririk, könüllü qanbağışlama aksiyasında iştirak etmək qərarına gəliblər. Bununla biz Vətənimizin təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimizə öz dəstəyimizi nümayiş etdiririk.

- Həmkarlar komitəsinin keçirdiyi bu aksiyanı yüksək dəyərləndirirəm, - Baş Klinik Hospitalın qan bankı bölməsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Kazım Quliyev söylədi. - Həyatda olduğu kimi, orduda da insanlar xəstələnirlər, yaralanmalar olur. Bu səbəbdən qan və qan komponentlərinə daim ehtiyac yaranır. Qan bankı olaraq bu ehtiyacları qarşılamaq bizim üzərimizə düşür. Bu aksiyada iştirak edən insanlar ən azından bizim qan ehtiyatımızı bir qədər də artırmış oldular.

Onu da qeyd edim ki, bu insanların çoxu ilk dəfədir ki, qan verirlər və donorluğun faydalı olduğu onlara izah edilir. Onlar görürlər ki, qan vermək heç də donorların həyatı üçün zərərli deyil və onlar bundan sonra da belə aksiyalarda ürəklə iştirak edə bilərlər.

Eyni zamanda burada donorların müayinəsi aparılır. Burada insanlar qan verərkən bütün infeksiyalara görə yoxlanılırlar və onların qanında sağlamlıq üçün təhlükəli hər hansı problem aşkarlanarsa, bu barədə onlara ətraflı məlumat verilir.

Ehtiyatda olan polkovnik-leytenant İsmayıl İsmayılov Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən gəlmişdi. O da Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin xeyirxah aksiyası barədə eşitdikdən sonra könüllü qan vermək istəmişdi.

- Qanbağışlama aksiyasında iştirak etməyi özümə borc bildim, - İsmayıl İsmayılov bildirir. - Hesab edirəm ki, Vətənini sevən hər bir vətəndaş belə xeyirxah işdə iştirak etməlidir. Sağlamlığında problem yaranmış hərbi qulluqçunun müalicə alıb ordumuzun sıralarına qayıtması üçün bu da bir köməkdir. Ona görə mən bu aksiya barəsində eşidəndə könüllü gəlib qan vermək qərarına gəldim.

Tədbir başa çatdıqdan sonra bəlli oldu ki, qanbağışlama aksiyasına 40 nəfərdən artıq insan qatılıb. Onların donor kimi bağışladığı qan Silahlı Qüvvələrimizin zabit və əsgərlərinin sağlamlığını təmin etmək kimi ən xeyirxah məqsədə sərf ediləcək.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Unutmaqaq!

<u>*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*</u>

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Bakı-2015" ilk Avropa Oyunlarının medalları ictimaiyyətə təqdim olunub



AzərTAc xəbər verir ki, martın 4-də "Fairmont Baku" hotelində təşkil edilən tədbirdə ilk Avropa Oyunlarının medalları ictimaiyyətə təqdim olunub.

"Bakı-2015" brendinə uyğun şəkildə hazırlanmış və üzərində dekorativ təsvirlər əks olunan medallar 380 qramlıqdır. Medalların tərtibatı "Soçi-2014" Qış Olimpiya və Parolimpiya Oyunlarının medallarını hazırlamış məşhur zərgərlik brendi "Adamas" ilə azərbaycanlı rəssam Nərgiz Hüseynovaya məxsusdur. Medallar "Azərsuvenir" şirkəti tərəfindən Azərbaycanda istehsal ediləcək.

## Zabit Səmədovdan daha bir qələbə



Azərbaycanlı K-1 döyüşçüsü Zabit Səmədov növbəti döyüşünü keçirib. Keçirdiyi 81 döyüşün 71-ni qalibiyyətlə başa vuran "Mauqli" ləqəbli Zabit Səmədov fevralın 28-də türk idmançı Mert Akinə qarşı mübarizə aparıb. Gecənin əsas döyüşü hesab edilən qarşılaşma Sinan Ərdəm döyüş arenasında keçirilib. Qarşılaşmanın ilk raundu olduqca hərəkətli başlayıb. İkinci raund birinci ilə müqayisədə zəif davam etdi. Matçın taleyini həll edən üçüncü raundda nakaut gözlənilsə də, bu raund da zəif keçdi. Hakimlərin ortaq qərarı ilə Zabit Səmədov vurduğu zərbələr hesabına gecənin qalibi oldu.

## Toğrul Əsgərov üçün növbəti şans




Belarusun paytaxtı Minskdə Aleksandr Medvedin mükafatı uğrunda sərbəst və qadın güləşi üzrə böyüklər arasında 45-ci beynəlxalq Qran Pri turnirinə start verilib. Turnirdə sərbəst güləş üzrə ölkə yığma komandasının üzvləri iştirak edir. Baş məşqçi Saypulla Absaidov və böyük məşqçi Firdovsi Umudovun rəhbərliyi altında 10 güləşçimiz turnirə yollanıb. Əhmədnəbi Qvarzatilov, Ruhlan Məmmədov (hər ikis 61 kq), Hacı Əliyev (65 kq), Olimpiya Oyunlarından sonra passivləşmiş Toğrul Əsgərov (70 kq), Cəbrayıl Həsənov, Kənan Əliyev (hər ikisi 74 kq), Məhəmmədhacı Xatiyev (86 kq), Xetaq Qazyumov, Şərif Şərifov (hər ikisi 97 kq) və Əli Maqomedabirov (125 kq) yarışda qüvvəsini sınayır.

## "Baku Fires" cari mövsümdə ilk səfər qələbəsini qazanıb




Dünya Boks Seriyası (WSB) Liqasının 7-ci turunda "Baku Fires" klubu səfərdə "Argentina Condors" komandasını məğlub edib. AzərTAc xəbər verir ki, "Baku Fires" cari mövsümdə ilk səfər qarşılaşmasında qalib gəlib - 4:1. Boksçularımızdan Məhəmməd Qurbanov (56 kq), Heybətulla Hacəliyev (64 kq), Nikolay Veselov (75 kq) və Abdulqadir Abdullayev (91 kq) rinqdən qalib ayrılıblar.

## Boksçularımız üç medal qazanıblar

Sofiyada boks üzrə ənənəvi "Strandja" turnirində Azərbaycan milli komandası üç medal qazanıb. AzərTAc xəbər verir ki, kişilərin yarışında mübarizə aparan Elvin İsayev (60 kq) həlledici görüşdə Ermənistan boksçusu Samvel Barseqyanı məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər boksçumuz Lorenzo Sotomayor (64 kq) da komanda yoldaşının uğurunu təkrarlayıb. Milli komandamızın üzvü finalda özbəkistanlı Faziliddin Qaibnazarov üzərində inamlı qələbə qazanıb. Qadınların yarışında çıxış edən Yelena Vıstropova (64 kq) isə gümüş medalla kifayətlənib. Avropa çempionu finalda İsveç nümayəndəsi Aqnes Aleksiussona məğlub olub.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Gizir Umarov Əziz Erkin oğluna 2013-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 303
Nüsxə 4600